Novruz Bayramınız mübarək!

www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-05 (1809) 14 mart 2025-ci il



## Ali Attestasiya Komissiyasının nümayəndələri ilə görüş keçirilib

**ATU-nun rektoru qarşılıqlı əməkdaşlığın elmi tədqiqatların səviyyəsini yüksəldəcəyini bildirib**

səh. 2

### Tələbələrin şikayət və təklifləri dinlənilib

səh. 2

### Podaqranın müayinə və müalicəsi icbari tibbi sığorta hesabına aparılır

səh. 6

### Azərbaycanda tibbi menecment necə işləyir?

səh. 7



### Məşhur britaniyalı alim ATU-nun qonağı olub

Rektorla görüşən baronessa Syuzan Qrinfild, əməkdaşlarımız üçün mühazirə də oxuyub

səh. 2

### Tədris Stomatoloji Klinikada xeyriyyə aksiyası təşkil olunub

*Şəhid ailə üzvləri və qazilər ödənişsiz aksiyanın təşkilindən razılıqlarını ifadə ediblər*

səh. 4

### Qlaukoma - ən arzuolunmaz göz xəstəliyi

*Professor Paşa Qəlbinur: Bəşəriyyət yaranandan insanlar və həkimlər qlaukoma ilə mübarizə aparır*

səh. 4



### Rektor ATU-nun qadın kollektivini təbrik edib

Professor Gəray Gəraybəyli: Qadınlar ölkəmizin hər sahədə inkişafı üçün öz töhfələrini əsirgəmirlər

səh.2

# Ali Attestasiya Komissiyasının nümayəndələri ilə görüş keçirilib

## ATU-nun rektoru qarşılıqlı əməkdaşlığın elmi tədqiqatların səviyyəsini yüksəldəcəyini bildirib



**Universitetimizdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının nümayəndələri ilə görüş keçirilib. Görüşdə Dissertasiya şuralarının fəaliyyəti, müdafiələrin təşkili prosedurları, bu sahədə keyfiyyətin artırılması üçün qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılıb.**

Rektor, professor Gəray Gəraybəyli ATU-nun ölkəmizdə elmi potensialın inkişafına xidmət göstərən Ali Attestasiya Komissiyası ilə sıx əməkdaşlıq etdiyini bildirib. Rektor universitetdə doktorant və dissertantlarla işin təşkili, tədqiqat işlərinin aparılmasında onlara göstərilən yardım və digər məsələlər haqqında danışıb. Bu cür görüşlərin mütəmadi olaraq keçirilməsinin əhəmiyyətini vurğulayan professor G.Gəraybəyli, ATU ilə Ali Attestasiya Komissiyası arasında qarşılıqlı əməkdaşlığın alimlərin elmi tədqiqatlarının səviyyəsinin yüksəlməsinə xidmət edəcəyinə inandığını bildirib.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan universitetdə doktorant və dissertantlarla işin qurulması, tədqiqat işlərinin aparılması, müdafiələrin təşkili sahəsində aparılan fəaliyyətlər barədə məlumatları bölüşüb.

Görüşdə Ali Attestasiya Komissiyasının sədr müavini, professor Nigar Ağayeva, həmin qurumun Tibb və Əczaçılıq elmləri üzrə Ekspert Şurasının sədri, professor Kamran Musayev çıxış ediblər. Ali Attestasiya Komissiyasının fəaliyyətinin dünya standartlarına uyğunlaşdırılması istiqamətində görülən işlər, elmi adların, elmi dərəcələrin verilməsi üzrə proses, dissertasiyaya dair tələblər, elmi tədqiqatların nəticələrinin nəşri və s. haqqında geniş məlumat verilib.

Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən dissertasiya şuralarının sədrləri və elmi katibləri, elmi seminarların sədrləri və problem komissiyalarının sədrləri görüşdə iştirak ediblər.

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli məşhur britaniyalı alim-neyroloq, Lordlar Palatasının üzvü, Linkoln kollecinin (Oksford) böyük elmi işçisi, Heriot-Vatt Universitetinin keçmiş kansleri, Böyük Britaniyanın Kral İnstitutunun ilk xanım direktoru, baronessa Syuzan Qrinfild ilə görüşüb.**



# Məşhur britaniyalı alim ATU-nun qonağı olub

## Rektorla görüşən baronessa Syuzan Qrinfild, əməkdaşlarımız üçün mühazirə də oxuyub

Professor G.Gəraybəyli məşhur alimə ATU-nun yaranma tarixi və bir əsrə yaxın müddətdə keçdiyi inkişaf yolu haqqında geniş məlumat verib. Universitetin son illər ərzində beynəlxalq arenada qazandığı uğurlar və dünyanın aparıcı elmi-tibbi ocaqları ilə qurulan əməkdaşlıqlar xüsusi vurğulanıb. ATU-nun əcnəbi tələbələrin sayına görə ölkədə birinci yerdə olduğunu qeyd edən rektor, qonağı universitetdə tədris olunan ixtisaslar, akademik heyətin elmi fəaliyyəti haqqında da məlumatlandırıb.

Öz növbəsində, baronessa Qrinfild Azərbaycan Tibb Universiteti ilə tanışlıqdan məmnun olduğunu bildirib. 2013-cü ildə təsis etdiyi məşhur "NeuroBio" şirkəti haqqında ətraflı məlumat verən alim, ortaq tədqiqatlar və layihələr nəticəsində insanların sağlamlığına qovuşmasında böyük uğurlar əldə etməyin mümkünlüyünü vurğulayıb. Azərbaycan Tibb Universitetinin elmi potensialını yüksək qiymətləndirən baronessa, qarşılıqlı əməkdaşlıq haqqında fikirlərini səsləndirib.

Görüşdən sonra britaniyalı alim ATU-nun əməkdaşları üçün "Altsheymer xəstəliyinə yeni yanaşma" mövzusunda mühazirə təqdim edib. Tədbirdə Nevrologiya və psixiatriya kafedralarının əməkdaşları da iştirak ediblər.

Qeyd edək ki, baronessa Syuzan Qrinfild Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi XII Bakı Qlobal Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdədir.



# Rektor ATU-nun qadın kollektivini təbrik edib

## Professor Gəray Gəraybəyli: Qadınlar ölkəmizin hər sahədə inkişafı üçün öz töhfələrini əsirgəmirlər

“Azərbaycanın bütün sahələrdə qazandığı uğurlarda qadınların misilsiz xidmətləri var. Səhiyyə və təhsil sahəsində çalışan qadınların əziyyəti xüsusilə çoxdur”. Bu fikirləri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetin qadın kollektivi ilə görüşündə bildirib.



8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımları təbrik edən rektor G.Gəraybəyli qeyd edib ki, bu gün qadınlar respublikamızda həyata keçirilən islahatlarda və quruculuq işlərində çox yaxından iştirak edirlər. Onlar Azərbaycanın hər sahədə inkişafı üçün öz töhfələrini əsirgəmirlər.

Bu işdə hər kəsə uğurlar diləyən rektor, ATU-nun qadın əməkdaşlarına cansağlığı, peşə fəaliyyətində uğurlar və ailə səadəti arzulayıb.

# Tələbələrin şikayət və təklifləri dinlənilib

**Stomatologiya fakültəsinin tələbələri ilə görüş keçirilib. Görüşdə Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov tələbələrə müraciət edərək, Azərbaycan Tibb Universitetində tədris və nizam-intizamla bağlı əsas məqamları diqqətə çatdırıb.**



O bildirib ki, Stomatologiya fakültəsinin 4-ci kursunda sərbəst iş olduğuna görə bütün kafedralardan sərbəst işlərin mövzusunun götürülməsi xahiş olunub: “Bir sərbəst işi kollokviuma qədər, digərini isə kollokviumdan sonra təqdim etmək istənilib. Qrup nümayəndələrinə bildirilib ki, tədris prosesində və ya qrupda yaşanan şəxsi problemlərlə bağlı vaxtında fakültə rəhbərliyinə məlumat versinlər. Hər kəs, istər müəllim, istər tələbə olsun, universitetin daxili nizam-intizam qaydalarına riayət etməlidir. Bütün diqqəti tədris prosesinə yönəltmək lazımdır, ən əsası, dərslərə gecikmək olmaz”.

Tədbirin davamında Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyevanın sədrliyi ilə cari problemlərin həlli, tələbələrin nizam-intizamı və qarşıda duran məsələlər müzakirəyə çıxarılıb. Görüşün əsas hissəsi tələbələrin problemlərinin dinlənilməsi və həll olunmasına həsr olunub. E.Əliyeva fakültə üzrə tələbə-dekanın keçirdiyi sorğu nəticəsində qeydə alınan şikayət və təklifləri səsləndirib.

**Martın 6-da Azərbaycan Tibb Universitetində “Narkomaniyaya yox deyək!” adı altında tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov qeyd edib ki, narkomaniya bütün bəşəriyyəti narahat edən və hər bir cəmiyyət üçün təhlükə mənbəyinə çevrilən ağrılı problemdir:**

# “Narkomaniyaya yox deyək!” adı altında tədbir keçirilib

## Prorektor Mahir Səfərov: “Narkomaniya cəmiyyətin mənəvi və əxlaqi dəyərləri ilə yanaşı, sosial-iqtisadi inkişafına da ciddi ziyan vurur"

“Narkomaniya cəmiyyətin tək mənəvi və əxlaqi dəyərlərinə deyil, həm də sosial-iqtisadi inkişafına və sağlamlığına ciddi zərər vurur. Cinayətkarlıqla yanaşı, həm də yoluxucu xəstəliklər, QİÇS və hepatitin müxtəlif formaları gizli şəkildə yayılır. Təəssüflər olsun ki, ölkəmizdə də gənclər və yeniyetmələr arasında bu sosial bəla günü-gündən artmaqdadır. Bu da onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, şəxsiyyəti və sağlamlığının itirilməsinə, son nəticədə ölümə səbəb olur”.



Prorektor əlavə edib ki, narkomaniya bütövlükdə cəmiyyətin məhvinə yönəldiyindən, onunla mübarizəyə də hamı qoşulmalıdır: “Bu problemə qarşı hər bir qurum və hər kəs mümkün variantlardan istifadə etməklə mübarizə aparmalıdır. Bu baxımdan, planetimizin qorunması, gələcək inkişafı naminə atılan addımlara dəstək olan ölkəmizdə də narkomaniya mövzusunda təxirəsalınmaz tədbirlər həyata keçirilir”.

Tədbirdə çıxış edən Psixiatriya kafedrasının professoru Zəfər Əliyev vurğulayıb ki, bu gün ən qorxulu xəstəliklərin mənbəyi elə narkomaniyadır. Çünki bu bəlaya mübtəla olan insanlar əksər hallarda onu dəf etməkdə aciz qalırlar: “Narkotikdən asılılıq bu maddələrdən bir və ya bir neçə dəfə istifadə etməklə yaranır. Tibbi təcrübələr göstərir ki, narkomaniya ilə mübarizə aparmaq çox çətindir. Bu bəladan xilas olmaq çox az insana qismət olur. Narkotikə qurşanmış əksər insanlar isə, bu bataqlıqda məhv olub gedirlər.

Narkotik maddələr ilk növbədə narkomanın sağlamlığına ziyan vurur. Narkomaniyaya aludəçilik orqanizmin zəifləməsi, bədənin arıqlaması və fiziki gücün azalması ilə nəticələnir. Orqanizmin zəhərlənməsi daxili orqanların - qaraciyər və böyrəyin zədələnməsinə gətirib çıxarır. Narkomaniyanın səbəb olduğu ən geniş yayılan xəstəlik Hepatit B-dir. Ən qorxulu xəstəliklər orqanizmə qan vasitəsilə daxil olur. Narkotiklərin vena vasitəsilə qəbul olunması zamanı hər bir xəstəliyə, o cümlədən HİV və QİÇS-ə yoluxma halları çoxalır”.

Professor əlavə edib ki, narkomanlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir: “Ölkəmizdə ilk dəfə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər Ümummilli Lider Heydər Əliyevin 1996-cı ildə imzaladığı fərmanda öz əksini tapıb. Bu strateji kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013 və 2018-ci illər üçün dövlət proqramları qəbul edilmişdir. Bu proqramlara əsasən, təhsil ocaqlarının, ictimai təşkilatların əsas vəzifələrindən biri narkomaniyaya qarşı maarifləndirmə və təbliğat işinin aparılmasıdır. Bu mübarizə işi kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə həyata keçirilir”.

Diskussiya şəraitində keçən tədbirdə tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb və bu cür maarifləndirici fəaliyyətin önəmi vurğulanıb. Tədbirdə narkomaniyanın fəsadlarından bəhs edən videoçarx nümayiş olunub.

# Xərçəng xəstələrinin müalicəsi səhiyyənin ən çox maliyyə vəsaiti tələb edən sahəsidir

## Akademik Əhliman Əmiraslanov: “Xəstəyə bədxassəli şiş diaqnozu qoyulubsa, deməli taleyi həll olunub” fikri yanlışdır



**Müsahibimiz tanınmış alim, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, ATU-nun Onkoloji Klinikasının direktoru, akademik Əhliman Əmiraslanovdur.**

**– Əhliman müəllim, bütün dünyada olduğu kimi, Azərbaycanda da ən çox ölümə səbəb olan xəstəliklərin sırasında ürək-qan damar patologiyasından sonra bədxassəli şiş xəstəlikləri gəlir. Beynəlxalq aləmdə tanınan bir mütəxəssis kimi, onkologiya sahəsi ilə bağlı ölkəmizdəki ümumi vəziyyəti necə qiymətləndirərdiniz?**

– Bədxassəli şişlər həm tibbi, həm də sosial əhəmiyyət kəsb edən aktual bir problemdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər il bədxassəli şişlərlə 20 milyona yaxın ilkin xəstələnmə hadisəsi qeydə alınır. Bu xəstəliklər ölümün əsas səbəblərindən biridir. Dünyada hər il 10 milyona yaxın insan bu patologiyalardan ölür və qeyd etdiyiniz kimi, bədxassəli şişlər ümumi ölüm göstəricisinə görə ürək-damar xəstəliklərindən sonra 2-ci yeri tutur. Uzun illərdir ki, Azərbaycanda da vəziyyət buna uyğundur.

Bu sahədə ölkəmizdəki vəziyyəti ümumilikdə qənaətbəxş qiymətləndirirəm və xüsusi vurğulamaq istərdim ki, son illər Azərbaycanda onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi sahəsində böyük nailiyyətlər əldə olunub. Respublikamızda onkoloji xidmətin təşkilinin dövlət sistemi var və onkoloji müəssisələrin geniş şəbəkəsi mövcuddur. Belə ki, müasir tibbi avadanlıqlar və yüksək ixtisaslı kadr potensialına malik ixtisaslaşdırılmış onkoloji müalicə müəssisələri, o cümlədən Milli Onkologiya Mərkəzi, Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun və Azərbaycan Tibb Universitetinin Onkologiya kafedraları, Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şirvan, Mingəçevir, Lənkəran və Şəki şəhərlərində fəaliyyət göstərən şəhər və rayonlararası onkoloji dispanserlər, poliklinikaların nəzdində fəaliyyət göstərən onkoloji kabinetlər, bir sıra tibb müəssisələrində onkoloji şöbələr fəaliyyət göstərir. Yaxın gələcəkdə Xankəndi şəhərində də onkoloji dispanserin fəaliyyətinin bərpası nəzərdə tutulub.

**– Hansı hallarda bu xəstəlikdən sağalanlar olur? Vaxtında dəqiq diaqnozun qoyulması, müalicə taktikasının düzgün seçilməsi, müasir avadanlıqların və dərmanların tətbiqi sayəsində xəstənin sağalması və yaxud ömrünün uzadılması mümkündürmü?**

– Məlumdur ki, onkologiya sahəsində əsas problemlərdən biri erkən mərhələdə aşkarlanma məsələsidir. Aparılan müalicənin uğurlu nəticələri erkən diaqnostika ilə birbaşa əlaqəlidir. Son illər respublikamızın bölgələrində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və müasir tibbi avadanlıqlarla təchizat işinin yaxşılaşdırılması sayəsində bu istiqamətdə müəyyən irəliləyişlər nəzərə çarpır. Lakin bir sıra nozoloji formalar üzrə erkən aşkarlanma hələ də aşağı səviyyədədir və bu vəziyyət mütəxəssisləri daim narahat edir. Göstərilən problemlə əlaqədar müəyyən kompleks tədbirlər həyata keçirilir. Bura ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, xərçəngönü xəstəliklərin erkən aşkar edilməsi və xərçəngin erkən diaqnostikası üçün əhalinin profilaktik müayinələrə aktiv cəlb edilməsi, ümumi profilli həkimlərdə onkoloji biliklərin və sayıqlığın artırılması kimi məsələləri aid etmək olar. Qeyd etmək lazımdır ki, xərçəng məfhumu altında böyük xəstəliklər qrupu birləşib. Bəzən insanlar arasında belə fikirlər yayılır ki, yəqin hansısa bir kəşf sayəsində bədxassəli şiş problemi həll ediləcək. Əlbəttə, bu cür yanaşma yanlışdır. Çünki bədxassəli şişlər adı altında birləşən çoxsaylı xəstəliklərin əmələgəlmə səbəbləri, inkişafı, gedişi, klinikası, diaqnostikası, müalicəsi və proqnozu bir-birindən fərqlənir. Məsələn, ağciyər xərçəngi üçün bir müalicə üsulu, süd vəzisi xərçəngi üçün başqa bir müalicə üsulu, limfomalar üçün isə ayrı bir müalicə üsulu tətbiq olunur. Xərçənglər bircinsli olmadığı üçün onların müalicəsi də fərqlidir. Bu fərqliliklər də öz növbəsində bədxassəli şişlərlə mübarizə problemini çətinləşdirir. Ümumiyyətlə, bədxassəli şiş müalicə olunan xəstəlikdir. Uzun müddətdir əhalinin müəyyən qrupu arasında belə bir fikir formalaşıb ki, bədxassəli şiş diaqnozu qoyulubsa, deməli, xəstənin taleyi həll olunub və bu xəstəni müalicə etmək mümkünsüzdür. Əslində isə bu cür yanaşma düzgün deyil. Hazırda bu xəstəliklərə düçar olan insanların müalicə olunaraq tam sağalıb ailəyə, cəmiyyətə, həyata qayıtmaları baxımından onkologiyanın imkanları kifayət qədər genişdir.

Bədxassəli şişlərin müalicəsində üç əsas üsul tətbiq edilir: cərrahi müalicə, şüa müalicəsi və dərman müalicəsi. Bu müalicə üsullarının hər biri getdikcə təkmilləşir. Bir çox şişlərin cərrahi müalicəsində son vaxtlar robotik-cərrahi üsullardan da uğurla istifadə edilir, eyni zamanda orqansaxlayıcı və rekonstruktiv əməliyyatlar aparılır. Şüa müalicəsində də son zamanlar çox böyük uğurlar əldə edilib. Müasir tələblərə cavab verən avadanlıqlar tibbi təcrübəyə tətbiq edilir ki, onlarla ətraf toxumaları zədələmədən sırf şişi müalicə etmək mümkündür. O avadanlıqlardan Azərbaycana da gətirilib və xəstələrin şüa müalicəsində istifadə edilir. Dərman müalicəsi sahəsində də çox ciddi müvəffəqiyyətlər qazanıldığını deyə bilərik. Məlumdur ki, kimyəvi dərman müalicəsindən həmişə istifadə olunurdu, lakin son illər bədxassəli şişlərin müalicəsində "Hədəf terapiyası" deyilən müalicə üsulu da tətbiq edilir. Bu üsulun tətbiqi ilə xəstələrin sağalma göstəriciləri xeyli yaxşılaşıb və məhz hədəf terapiyanın, eləcə də immunterapiyanın tətbiqi ilə hətta yayılmış şiş prosesləri zamanı xəstələri uzun müddət yaşatmaq, bəzi hallarda isə tam sağaltmaq mümkündür.

Bu sualınızla əlaqədar bir məsələni də qeyd etmək istərdim ki, hazırda bu və ya digər şiş növlərinin vaksinlərinin yaradılması istiqamətində ciddi tədqiqatlar aparılır. Əminəm ki, vaxt gələcək, peyvənd yolu ilə yoluxucu xəstəliklərin qarşısını aldığımız kimi, müəyyən şiş növlərinə qarşı da vaksinlər hazırlanacaq və insanları peyvənd etməklə onların gələcəkdə şiş xəstəliklərindən qorunmasına nail ola biləcəyik.

**– Əvvəllər onkoloji xəstələrin bir çoxu xaricə üz tuturdu. Hazırda bu tendensiyanın dəyişdiyini, öz klinikalarımıza, öz mütəxəssislərimizə inam hissinin artığını deyə bilərikmi? Bu nöqteyi-nəzərdən, rəhbərlik etdiyiniz ATU-nun Onkoloji Klinikası öz fəaliyyətini necə qurur?**

– Bəli, əvvəllər bu hallar var idi. Lakin son dövrlərdə ölkəmizin ixtisaslaşdırılmış klinikalarında müasir onkoloji müalicə metodlarının tətbiqi, peşəkar həkimlərimizin təcrübəsi və tibb infrastrukturunun inkişafı sayəsində bu tendensiya xeyli dəyişib. Artıq xəstələrin xarici ölkələrə getməsinə zərurət yoxdur. Rəhbəri olduğum Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının zəngin maddi-texniki bazası və yüksək hazırlıqlı kadr potensialı burada həm onkoloji xəstələrə ixtisaslaşdırılmış tibbi yardım göstərməyə, həm də onkologiyanın müxtəlif sahələri üzrə elmi-tədqiqat işləri aparmağa tam imkan verir. Klinikada 2 şöbənin nəzdində 5 elmi bölmə, həmçinin poliklinika və diaqnostika bölmələri, kimyəvi dərman terapiyası bölməsi, cərrahi blok və anesteziologiya və intensiv terapiya bölməsi fəaliyyət göstərir. Klinikada iri oynaqların rezeksiyası və endoprotezləşdirilməsi, kürək-döşarası amputasiya, qalça-qarınarası ayırma, larinqektomiya və səs protezlərinin qoyulması kimi müasir klinik onkologiyada yerinə yetirilən mürəkkəb cərrahi əməliyyatlar icra edilir.

Poliklinika və diaqnostika şöbəsinin nəzdində fəaliyyət göstərən kimyəvi dərman müalicəsi bölməsində xəstələrə onkologiyanın bütün sahələri üzrə kimyəvi dərman terapiyası aparılır.

Klinika həm də ATU-nun Onkologiya kafedrasının bazasıdır. Burada universitetin Müalicə-profilaktika, Stomatologiya, Hərbi tibb fakültələrinin, eləcə də İctimai səhiyyə fakültəsinin “tibb bacısı işi” və “fizioterapiya və tibbi reabilitasiya” ixtisası üzrə tələbələrinə onkologiya fənni tədris olunur. Kafedranın zəruri tədris vəsaitləri ilə təchiz olunmuş tədris otaqları və zəngin maddi-texniki bazası tələbələrə onkologiya fənninin sirlərinə yiyələnməyə tam imkan verir. Tibb Universitetini bitirən həkimlər klinikada rezidentura və doktorantura təhsillərini də davam etdirirlər.

**– Azərbaycanda diz, bud, çanaq oynağı köçürmələri sizin adınızla bağlıdır. Hazırda bu istiqamətdə işlər necədir? Protezlərlə təchizat, əməliyyat şəraiti sizi qane edirmi? Davamçılarınız yetişirmi?**

– Mən 20 ilə yaxın Moskvada, o vaxtkı SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzində fəaliyyət göstərdikdən sonra 1992-ci ildə Azərbaycana qayıtdım və artıq 33 ildir ki, öz vətənimdə fəaliyyətimi davam etdirirəm. Klinik onkologiyanın bir çox sahələri ilə məşğul olmuş və mürəkkəb cərrahi müdaxilələri icra etmişəm. Bunlardan biri də sümük şişləri zamanı geniş sümük rezeksiyalarından sonra yaxında yerləşən oynağın funksiyasının saxlanması şərtilə defektin plastik əvəz edilməsi məqsədilə diz, bud-çanaq və bazu oynaqlarında rezeksiya ilə birlikdə aparılan endoprotezləşdirmə əməliyyatlarıdır. Göstərilən əməliyyatları Azərbaycanda 1992-ci ildən başlayaraq icra edirəm və nəticələri də qənaətbəxşdir. Oynağın endoprotezləşdirilməsi dayaq-hərəkət aparatının xəstəlikləri zamanı tətbiq olunan ən müasir yüksək texnoloji cərrahi müalicə üsuludur. Bu zaman zədələnmiş sümük oynaqla birlikdə çıxarılır və süni protezlə (implant) əvəz edilir. Pasiyentə qoyulan protez normal oynağın formasını bərpa edir və ona aid bütün hərəki funksiyaları yerinə yetirir. Bud sümüyünün distal nahiyəsinin, qamış sümüyünün proksimal nahiyəsinin və bazu sümüyünün proksimal nahiyəsinin şişləri zamanı əmələ gələn defektləri əvəz etmək məqsədilə biz əvvəllər Sivaş və Poldi endoprotezlərindən, 1996-cı ilin fevral ayından öz konstruksiyamız əsasında işlənib hazırlanmış endoprotezlərdən, sonrakı illərdən etibarən isə Almaniyanın “Link” və Türkiyənin “Hippokrat” firmalarının hazırladığı endoprotezlərdən (modul endoprotezlər) klinik praktikamızda geniş istifadə etmişik. Hazırda dünyanın aparıcı istehsalçıları tərəfindən daha müasir, yüksək davamlılığa malik və orqanizmdə uzun müddət qala bilən protezlər hazırlanır ki, bunlardan da ölkəmizin müvafiq ixtisaslaşdırılmış klinikalarında uğurla istifadə edilir. Sümük sarkomaları zamanı endoprotezləşdirmə ilə aparılan əməliyyatlar həm də xəstələrin kompleks müalicəsinin bir tərkib hissəsidir. Bu əməliyyatlara qədər sümük sarkomalarına düçar olmuş xəstələrdə əksər hallarda ətrafların götürülməsi ilə nəticələnən şikəstedici əməliyyatlar həyata keçirilirdi və nəticəsi bir çox hallarda qənaətbəxş olmurdu. Biz sümük sarkomaları zamanı diz, bud-çanaq və bazu oynaqlarında rezeksiya ilə birlikdə aparılan endoprotezləşdirmə əməliyyatları da daxil olmaqla kompleks müalicə üsulları işləyib hazırladıq və klinik praktikaya tətbiq etdik. Beləliklə həm şişlə zədələnmiş ətrafı saxlamaq mümkün oldu, həm də xəstələrin müalicə nəticələri xeyli yaxşılaşdı.

Sualınızın sonuncu hissəsinə cavab olaraq qeyd edim ki, respublikamızın ixtisaslaşdırılmış tibb müəssisələrində protezlə təchizat işi qənaətbəxş vəziyyətdədir. Dayaq-hərəkət aparatının müəyyən xəstəlikləri zamanı aparılan endoprotezləşdirmə əməliyyatları icbari tibbi sığortanın xidmətlər zərfinə daxil edilib və bu əməliyyatlar uğurla həyata keçirilir.

**– Son olaraq Milli Məclisin Səhiyyə Komitəsində daha çox müzakirə edilən məsələlər, o cümlədən ölkəmizdə icbari tibbi sığorta ilə bağlı görülən işlər, hazırkı vəziyyət və gələcək planlar barədə fikirlərinizi öyrənmək istərdik. Yeri gəlmişkən, icbari tibbi sığortanın ATU-nun klinikalarında tətbiqi tələbata uyğundurmu?**

– Milli Məclisin Səhiyyə Komitəsində müzakirə edilən məsələlər arasında səhiyyənin hüquqi-normativ, maddi-texniki bazasının təkmilləşdirilməsi, icbari tibbi sığorta, tibbi xidmətlərin keyfiyyətinin artırılması və tibbi infrastrukturun inkişafı məsələləri ön plandadır. Azərbaycanda səhiyyə islahatları, o cümlədən icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi sayəsində əhalinin səhiyyə xidmətinə əlçatanlığı xeyli yaxşılaşıb, icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin sayının artırılması əhalinin bu xidmətlərdən daha geniş istifadə etməsinə şərait yaradıb. Onkoloji xəstəliklərin də icbari tibbi sığortanın xidmətlər zərfinə daxil edilməsi istiqamətində müzakirələr aparılır. Biz bilirik ki, xərçəng xəstələrinin müalicəsi səhiyyənin ən böyük maliyyə vəsaiti tələb edən sahəsidir. Xüsusilə şiş əleyhinə olan dərmanlar, "İmmun terapiya", "Hədəf terapiya" və kimyəvi üsulla müalicədə istifadə olunan dərmanlar böyük maliyyə tutumludur. Bu məsələləri dəfələrlə Milli Məclisdə qaldırmışam. Ümidvaram ki, yaxın gələcəkdə bu məsələ də öz müsbət həllini tapacaq.

**Arif MƏMMƏDLİ**



# Tədris Stomatoloji Klinikada xeyriyyə aksiyası təşkil olunub

## Şəhid ailə üzvləri və qazilər ödənişsiz aksiyanın təşkilindən razılıqlarını ifadə ediblər

**Martın 6-da Nəsimi rayon İcra Hakimiyyəti və ATU-nun Tədris Stomatoloji Klinikasının birgə təşkilatçılığı ilə şəhid ailələri və qazilər üçün ödənişsiz müayinə və müalicə aksiyası təşkil olunub. Bu kateqoriyadan olan şəxslər həkim baxışı ilə yanaşı, bəzi prosedurlardan da tam ödənişsiz keçiblər.**

Vətən müharibəsi qaziləri Qurban Bayramov, ehtiyatda olan zabit Pərvin Əzimov, adlarının çəkilməsini istəməyən digər qazilər və şəhid ailələrinin üzvləri bizimlə söhbətlərində ödənişsiz aksiyanın təşkilindən razılıqlarını ifadə edərək, bu cür aksiyaları dövlətimizin onlara göstərdiyi qayğının bariz nümunəsi kimi qiymətləndiriblər.

Aksiyaya gələnlərin bir çoxunun üz tutduğu həkimlərdən İlqar Qacar, Leyla Şirəlizadə, Mehman Rüstəmov və başqaları diş çəkimi, diş ağrıları zamanı sinirlərin çıxarılması, diş kanallarının təmizlənməsi və narahatlıq doğuran digər vacib prosedurları peşəkarlıqla həyata keçiriblər.

Stomatoloji Klinikanın direktoru, t.ü.f.d İmran Ağayev müharibə günlərində olduğu kimi, tibb işçilərinin bu gün də şəhid ailələrinin və qazilərin yanında olduğunu, bu aksiyanı stomatoloji problemləri olan, müayinəyə ehtiyac duyan şəhid ailələrinə və qazilərə dəstək olmaq üçün təşkil etdiklərini bildirib. Onun sözlərinə görə, hələlik bu aksiya çərçivəsində Nəsimi rayonu ərazisində yaşayan şəhid ailələrinin üzvlərinə və qazilərə xidmət göstərilib.

Xeyriyyə aksiyasında həkimlərlə yanaşı, klinikanın rezidentləri də yaxından iştirak ediblər. Gələcəkdə müayinəyə bu kateqoriyadan olan daha çox insanın cəlb edilməsi və prosedurların sayının artırılması nəzərdə tutulub.

# TransCaspian İHPBA 6 ölkəni birləşdirir

## Professor Nuru Bayramov: Yaratdığımız əməkdaşlıq meydanı hamı üçün faydalı olacaq

**Artıq bir neçə aydır Transxəzər Beynəlxalq Hepato-Pankreato-Biliar Cərrahiyyə Assosiasiyası (TransCaspian İHPBA) fəaliyyət göstərir. Ötən ilin dekabrında Assosiasiyanın Bakıda təsis konfransı keçirilib və ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov prezident seçilib.**




Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Gürcüstan və Qırğızıstanın qoşulduğu assosiasiyanın təşkil olunmasının hansı zərurətdən yarandığı, məramı və məqsədi barədə professor Nuru Bayramovla əlaqə saxladıq. Onun sözlərinə görə, TransCaspian İHPBA dünyada qaraciyər, mədəaltı vəzin cərrahiyyəsi ilə məşğul olan mütəxəssislərin elmi tədqiqatlarının aparılması, təcrübi fəaliyyətlərinin yönləndirilməsi, bir-birinin təcrübəsindən yararlanması, bu sahədə tədrisi həyata keçirmək məqsədilə yaradılıb: "Bu sahə daim praktik cəhətdən inkişaf edir və yeni texnologiyalar nüfuz etməkdədir. Vaxtilə laparoskopiya aktual idisə, indi robotik cərrahiyyə gündəmdədir. Həmçinin iki böyük əməliyyat – qaraciyər və mədəaltı vəzi transplantasiyası bu sahənin içərisindədir. Bütün bunları nəzərə alaraq düşündük ki, ölkəmizdə də belə bir cəmiyyətimiz olsun. Bu sahədə həmkarlarımızla məsləhətləşmələr apardıq və belə bir assosiasiya yaratmaq qərarına gəldik".

Professor bildirir ki, 44 günlük Vətən müharibəsindən sonra assosiasiyanın təsis olunması bir zərurət idi. Çünki müharibədən sonra bütün dünyanın Azərbaycana baxışı dəyişdi: "Qalib xalq kimi dünya ölkələri tərəfindən qəbul olunmağa başladıq. Müharibə zamanı bizə dost, mənəvi dəstək olan ölkələri tanıdıq. Eyni zamanda türkdilli ölkələr bizi dəstəklədilər. Bunların hamısı bizim ölkəmizə həm də bir mesaj idi. Yəni özünü dəyiş, təşəbbüslər irəli sür və lider ol. Biz də öz sahəmizdə təşəbbüskar olmaq və əməkdaşlıq meydanı yaratmaq yolunu tutduq".

Müsahibimiz Assosiasiyaya üzv olan Orta Asiya ölkələrində təbabətin inkişaf səviyyəsi barədə təhlillər, onların bizə verəcəyi faydadan da söhbət açdı: "Sevindirici haldır ki, Orta Asiya ölkələrində təbabət inkişaf edir. Məsələn, Qazaxıstanda təbabət bir sıra sahələrdə bizdən irəlidədir. Elə bu yaxınlarda Aktauda baş verən təyyarə qəzası zamanı yaralılar üzərində aparılan əməliyyatlarda da biz bunun şahidi olduq. Əlavə edim ki, hepato-pankreato-biliar cərrahiyyəsi və transplantasiya üzrə Qazaxıstanda bir neçə mərkəz fəaliyyət göstərir. Uğurlu nəticələri də var. Bir sözlə, Qazaxıstan tibbi nöqteyi-nəzərdən inkişaf etmiş səviyyədədir. Özbəkistanın əyalətlərində təbabət inkişaf etməsə də, mərkəzi bölgələrində vəziyyət yaxşıdır. O da yavaş-yavaş aradan qalxmağa doğru gedir.

Qırğızıstan isə bu sahədə digər Orta Asiya ölkələrindən geri qalır. Amma onlar da yerlərində saymır, inkişaf edirlər. Bu ölkənin də yaxın gələcəkdə yaxşı səviyyəyə çatacağına ümidlərim var".

N.Bayramov qeyd etdi ki, assosiasiyanın hədəfi üzv ölkələrdə çalışan mütəxəssisləri elmi, praktik, təhsil baxımından bir araya gətirmək, ortaq tədqiqatlar aparmaq, ortaq dərsliklər və protokollar hazırlamaq, ortaq tədris prosesləri və təcrübə mübadiləsi həyata keçirməkdir: "Bu hədəflərdən hələ ki birinə, ortaq dərsliyin çap olunmasına nail olmuşuq. 8 dildə dərsliyimiz olacaq. Hazırda "Öd yollarının cərrahi xəstəlikləri" adında portalımız fəaliyyət göstərir. Hər hansı müəllif tərəfindən yazılan və portalda yerləşdirilən məqalə 8 dilə - Azərbaycan, türk, qazax, özbək, qırğız, rus, ingilis və alman dillərinə tərcümə olunacaq. Planlaşdırırıq ki, yaxın gələcəkdə məqalələr gürcü, Çin və digər dillərə də tərcümə olunsun".

Professor bir çox ölkələrdə HPB üzrə assosiasiya və birliklərin fəaliyyət göstərdiyini, lakin çoxunun Beynəlxalq HPB təşkilatına üzv qəbul edilmədiyini bildirdi. Ancaq onun rəhbərlik etdiyi Transxəzər Beynəlxalq Hepato-Pankreato-Biliar Cərrahiyyə Assosiasiyası birbaşa Beynəlxalq HPB təşkilatına üzv qəbul olunub. TransCaspian İHPBA-nın ildə bir dəfə üzv ölkələrdə konfransının keçirilməsi nəzərdə tutulur. Növbəti konfransın bu il ərzində Türkiyədə keçirilməsi planlaşdırılır.



# Tədris Cərrahiyyə Klinikasında 110 yaşlı xəstə uğurla əməliyyat olunub

## Cəfər Nəsirli: Bizə müraciət edərkən yerindən qalxa bilməyən Hilal İbrahimov artıq yeriməyə başlayıb

**Adətən yaşlı insanlar üzərində cərrahiyyə əməliyyatının keçirilməsi bir sıra risklər doğurur. Buna baxmayaraq, peşəkar həkimlər xəstənin vəziyyətini düzgün qiymətləndirərək sağlamlığına qovuşdura bilir.**

Bu günlərdə Tədris Cərrahiyyə Klinikasında 110 yaşlı Hilal İbrahimov üzərində artroplastika əməliyyatı (omba-çanaq protezi) uğurla icra edilib. ATU-nun Travmatologiya və ortopediya kafedrasının və klinikanın eyniadlı şöbəsinin müdiri, dosent Cəfər Nəsirlinin verdiyi məlumata görə, xəstə yıxıldıqdan sonra onda sol bud sümüyünün boyun sınığı yaranıb və müayinə nəticəsində artroplastika əməliyyatı aparılması qərarı verilib.

Omba protezi əməliyyatı - bud oynağının zədələnmiş və ya sıradan çıxmaq üzrə olan hissələrinin süni implantla (metal, keramika və ya sərt plastikdən hazırlanmış komponentlər) dəyişdirilməsi prosesidir: "Bu prosedur ümumi anesteziya altında həyata keçirilir. Xəstələr adətən əməliyyatdan sonrakı ilk gün ayağa durur, yeriməyə başlayırlar. Bizə müraciət edən zaman yerindən qalxa bilməyən, güclü ağrıları olan xəstəmiz əməliyyatdan sonra yeriməyə başladı".

110 yaşlı pasiyent əməliyyatdan sonra özünü yaxşı hiss edib və bir neçə gün həkim nəzarətində qaldıqdan sonra evə buraxılıb. Xəstə və yaxınları uğurlu əməliyyata görə ATU-nun Tədris Cərrahiyyə Klinikasının əməkdaşlarına, xüsusilə cərrah Cəfər Nəsirliyə təşəkkürlərini bildiriblər.

# Qlaukoma - ən arzuolunmaz göz xəstəliyi

## Professor Paşa Qəlbinur: Bəşəriyyət yaranandan insanlar və həkimlər qlaukoma ilə mübarizə aparır

**9-15 mart Ümumdünya Qlaukoma ilə Mübarizə Həftəsi kimi qeyd olunur. Bəs bu həftəni ölkəmizdəki oftalmoloqlar necə keçirir? Hansı tədbirlər təşkil edir, qlaukomadan əziyyət çəkənlərə hansı tibbi yardımlar göstərilir?**

Bu barədə ətraflı məlumat əldə etmək üçün Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Paşa Musayevlə (Qəlbinur) əlaqə saxladıq. Professor tibdə çoxsaylı qlaukomaların olduğunu bildirdi: "Qlaukoma" ümumi bir termindir. Çoxsaylı qlaukomalar mövcuddur. Gözdə irili-xırdalı on mindən çox xəstəlik var. Onlar arasında xüsusi arzuolunmayan iki-üç xəstəlik var ki, biri, bəlkə də elə birincisi qlaukomadır.

Bəşəriyyət yaranandan insanlar və həkimlər qlaukoma xəstəliyi ilə mübarizə aparıblar. Amma bu xəstəliyi tam şəkildə nə aradan qaldırmaq mümkün olub, nə də ləğv etmək. Müalicə istər medikamentoz, istər cərrahi olsun, bunlar yalnız xəstəliyi dayandırmağa, fəsadların qarşısını almağa xidmət edir. Məqsəd gözün görmə qabiliyyətinin tam itməsinə imkan verməməkdir. Gözlərində narahatlıq hiss edən xəstələr dərhal həkimə müraciət etməlidir ki, qlaukoma ilə üzləşməsinlər. Tutaq ki, 50 faiz görmə itibsə, həkim qalan 50 faizin saxlanılması üçün mübarizə aparır".

Oftalmoloq-cərrah qlaukomaya şübhə yaradan çoxsaylı əlamətlərin mövcud olduğunu bildirib. Buna nümunə kimi, işığın mənbəyinə baxan zaman orada göyqurşağına bənzər həlqələrin yaranmasını qeyd edib: "Bəzən insanların ürəyi ağrıyır, o ağrını gözündə də hiss edir, bu, bir şikayətdir. Xəstələr bəzən deyir, "gözümü hiss edirəm", "gözümdə təzyiq hiss edirəm". Biz tələbə olan illərdə göz üçün 4-5 damcı preparatı var idi ki. İndi onların sayı 200-ü keçib. İllər ərzində aparılan tədqiqatlar bu dərmanların effektivlik gücünü artırıb. Həm də qlaukomanın xeyli sayda formaları kəşf olunub. Əslində həmin xəstəliklər mövcud idi, sadəcə



həkimlər bu barədə məlumatsız olublar.

Mənim doktorluq işim qlaukoma barədə olub və 1983-cü ildə sovetlər birliyində elm sahəsində verilən yüksək mükafata - Ümumittifaq Komsomol Mükafatı Laureatına layiq görülüb. O zaman bu mükafat oftalmologiya sahəsində mənimlə birgə iki nəfərə verilmişdi. Mənim üsulum "Qlaukomada Musayev üsulu" adı ilə dünyanın hər yerində tətbiq olunur. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, qlaukomada gözün içərisində bir trabekula var. Yəni trabekulyar sahə, bioloji tor. Bu, gözdaxili mayenin axmasına mane olur.

Apardığım tədqiqat zamanı məlum oldu ki, gözün bir hissəsində elə bir təbiət var ki, başqa bir hissəni əvəz edə bilər. Bu kəşf orqan və toxuma transplantasiyasında da yeni bir istiqamət oldu. Bundan sonra müxtəlif ölkələrdə kardiocərrahlar da bu tip əməliyyatlar həyata keçirməyə başladılar".

P.Qəlbinur söyləyib ki, dünyada, o cümlədən Azərbaycanda Qlaukoma ilə Mübarizə Həftəsinin qeyd olunmasında məqsəd xəstəliyin yaranması, risk amilləri, profilaktikası və diaqnozu barədə ictimaiyyəti məlumatlandırmaqdır: "Elə sizin məndən müsahibə götürməyiniz də bu problemin əhəmiyyətini vurğulamağın bir nümunəsidir".

**Qabil ABDULLAYEV**

# ATU-nun şöbə müdiri beynəlxalq konqresdən qayıdıb

**Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının müdir müavini, dosent Müşfiq Orucov Rumınıyada keçirilən beynəlxalq konqresdə iştirak edib.**



"Mükəmməlliyi inkişaf etdirməklə gələcəyi hazırlayırıq" mövzusunda tədbir Yaşi şəhərində yerləşən Apollonia Universitetində baş tutub. M.Orucov konqresin "Biotibbi yeniliklər" bölməsində moderatorluq edib və "Hepatosellulyar karsinomanın molekulyar patogenezi və müasir terapevtik yanaşmalar" mövzusunda məruzə ilə çıxış edib. Səfər müddətində M.Orucov ATU-nun tərəfdaşlıq etdiyi Apollonia Universitetinin rəhbərliyi ilə görüşüb, gələcək əməkdaşlıqlar barədə fikir mübadiləsi aparıb. Səfər Erasmus+ mübadilə proqramı çərçivəsində həyata keçirilib.

# Əməkdaşımız Hindistanda keçirilmiş konqresdə iştirak edib

**Bu günlərdə Hindistanın Mumbai şəhərində bariatrik və metabolik cərrahiyyə üzrə Beynəlxalq Cərrahlar Federasiyasının (IFSO) Asiya və Sakit Okean hövzəsi ölkələri üzrə 9-cu konqresi keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının assistenti, federasiyanın ölkəmiz üzrə tək rəsmi daimi üzvü, bariatrik-metabolik cərrah Taryel Ömərov təmsil edib.**




Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının təsisçisi və sədri olan T.Ömərov konqresdə müzakirə edilən mövzulardan biri üzrə spiker, digər paneldə isə moderator olaraq iştirak edib. Onun sözlərinə görə, konqresin əsas məqsədi dünyada sürətlə yayılan piylənmə və bu halın özü ilə gətirdiyi xəstəliklərin müalicəsinə dair yeni bilikləri, təcrübələri paylaşmaq, həmçinin insanları bu istiqamətdə maarifləndirmək üçün mövcud texnoloji yeniliklərlə inteqrasiyada həll üsullarının öyrənilməsi olub. Konqresdə Çin, Hindistan, Yaponiya, Cənubi Koreya, Tayland, İran, Avstraliya, Filippin, Tayvan, Yeni Zelandiya və s. ölkələrdən mütəxəssislər iştirak edib.

30 ilə yaxındır beynəlxalq konqreslərə qatılan cərrah T.Ömərov bu konqresin tamamilə fərqli nəticələrlə yadda qaldığını bildirib. Tədbirdə Azərbaycan səhiyyəsinin inkişafı, bu sahədə əldə edilən uğurlar və yeniliklər barədə məlumatlar səsləndirilib, yeni əlaqələr və əməkdaşlıqların təməli qoyulub.

# "Hematoloji nadir xəstəliklər" konqresində təmsil olunmuşuq




**I Daxili xəstəliklər kafedrasının əməkdaşı Şəhla Şabanova fevralın 25-dən 28-dək Şimali Kipr Türk Cümhuriyyətində keçirilmiş "Hematoloji nadir xəstəliklər" konqresində iştirak edib.**

Ş.Şabanova konqresin üçüncü günü "Multipl mieloma xəstələrinin induksiya müalicəsində 4-lü rejim 3-lüyə qarşı" mövzusunda çıxış edib. Xəstəliyin əlamətləri, profilaktikası və müalicəsi barədə konqres iştirakçılarına məlumat verən hematoloq bildirib ki, qanyaradıcı sistemin xroniki bədxassəli xəstəliyi olan mieloma xərçəngin bir çox növlərindən fərqlənir: "Bu xəstəliyin yaranma səbəbi hələ də tam bəlli deyil. Belə qəbul olunub ki, kimyəvi maddələr, neft və radiasiyaya məruz qalmaq xəstəliyi yaradan amillər sırasındadır. Çoxsaylı mieloma hüceyrələri sümük iliyində yaranıb artdığı üçün sağlam sümük hüceyrələrinin xərçəng hüceyrələri tərəfindən istilasına səbəb olur". O, nəzərə çatdırıb ki, pasiyentlərin heç də hamısı innovativ müalicə metodlarından xəbərdar deyil. Buna görə də xəstəliklə bağlı maarifləndirmə işinin və müxtəlif tədbirlərin təşkili, məlumatların paylaşılması mühüm əhəmiyyət kəsb edir.

Həkimin sözlərinə görə, çoxsaylı mieloma xəstəliyi tək bir şiş kimi deyil, sümük iliyində anormal plazma hüceyrələrinin yığılması və qanda zülalın anormal miqdarda olması şəklində özünü büruzə verir. Bu zaman xəstə sümüklərdə ağrı, ürəkbulanma, halsızlıq, tez yorulma halları ilə üzləşir və xəstədə patoloji sınıqlar, arıqlama, infeksiyalara tez-tez yoluxma müşahidə olunur. Hətta azacıq hərəkət zamanı belə sümüklər sına bilir. Gecikmiş formalarda böyrək şikayətləri, Oliqo-anuriya hallarına (sidiyə çıxmanın zəifləməsi və ya bəzən tamamən itməsi) da rast gəlinir.

Toplantıda vurğulanıb ki, nadir hematoloji xəstəliklər xüsusi diqqətdə saxlanılır. 2000-də bir rast gəlinən xəstəliklər nadir xəstəliklər kimi təsnifatlaşdırılır ki, bir çox hematoloji bədxassəli xəstəliklər də buraya daxildir.

Hər il mütəmadi olaraq keçirilən, bu il Şimali Kipr Türk Cümhuriyyətində baş tutan sayca 8-ci toplantıda diqqətə çatdırılıb ki, bu cür tədbirlərdə müzakirə olunan yeniliklər sonradan hematoloji xəstələrin müalicəsində uğurla tətbiq edilir.

**Hər il mart ayının ikinci cüməsi Ümumdünya Böyrək Günü kimi qeyd olunur. Bu il bu əlamətdar tarix martın 13-nə təsadüf edir. Mövzu ilə bağlı ətraflı məlumat almaq üçün Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının Urologiya şöbəsinin müdiri Fikrət Əhmədovla həmsöhbət olduq.**

# Sağlam böyrəyin ilk şərti çoxlu su içməkdir

## Mütəxəssis bildirir ki, oturaq həyat tərzi, zərərli qidalanma, qan dövranı pozğunluğu fəsadlara səbəb olur



Bu günün uroloqlar üçün xüsusi əhəmiyyət daşıdığını bildirən F.Əhmədov, ilk növbədə hər kəsə sağlam böyrək arzuladığını ifadə etdi: "Böyrək insanın həyati vacib orqanlarından biri hesab olunur, orqanizmi və qanı toksik maddələrdən təmizləmə funksiyasını yerinə yetirir. Öz funksiyasını itirdikdə isə, insan həyatı üçün təhlükə baş qaldırır. Yəni xəstənin hemodializ prosedurlarına ehtiyacı yaranır və böyrək köçürməyə qədər xoşagəlməz vəziyyət ortaya çıxa bilər".

Şöbə müdiri insanlara böyrəklərinin sağlamlığını qorumaq üçün bəzi tövsiyələr verdi. Onun dediyinə görə, ilk növbədə hər kəs gün ərzində 2-3 litr su qəbul etməlidir ki, orqanizmdəki toksik maddələr maye vasitəsilə xaric olunsun: "Əks halda, böyrək susuz qalır və orqanizmdən toksik maddələrin xaric olunması dayanır. Həmçinin böyrək normal funksiya göstərə bilmir və onda geriləmələr baş verir. Bununla da böyrəyin ömrü qısalmış olur".

İnsanların 40-45 yaşlarından başlayaraq ildə bir dəfə check-up müayinəsindən keçməsini, qan və sidik analizləri verməsini məsləhət görən F.Əhmədov, bunu yaş artdıqca böyrək xəstəliklərinə rast gəlmə ehtimalının yüksəlməsi ilə əsaslandırdı: "Xüsusilə, böyrəkdaşı xəstəliyi, böyrək və sidikçıxarıcı yolların şişi xəstəlikləri aşkarlana bilər. İndi Ramazan ayı ilə əlaqədar bir çox insanlar oruc tutur. Qeyd edim ki, oruc tutanlar imsak və iftar zamanı maye qəbulunu özləri tənzimləməli, ümumilikdə sutka ərzində 2-3 litr su qəbul etməlidirlər ki, böyrəyin sağlamlığını qoruya bilsinlər. Əgər oruc tutan şəxsin qanında kreatinin miqdarı artırsa, yaxud xroniki böyrək xəstəsidirsə və ya daim böyrəkdaşından əziyyət çəkirsə, bir sözlə, böyrək funksiyası zəifləmişsə, ona oruc tutmaq məsləhət görülmür. Çünki o tip xəstələrə uzun müddət susuz qalmaq olmaz".

F.Əhmədov bəzi xəstəliklərin müalicəsi zamanı qəbul olunan dərmanların böyrəklərə mənfi təsirindən də söhbət açdı: "Həkimlər bu məsələni diqqətdə saxlamalıdırlar. Böyrək xəstəsi olan pasiyent başqa xəstəliklərdən müalicə olunarkən həmin şəxsin böyrəklərə toksik təsir edən dərmanları qəbul etməsinə icazə verilmir. Başqa sahənin həkimləri xəstənin böyrəklərində problem olub-olmadığını mütləq dəqiqləşdirməlidir. Eləcə də müalicənin müsbət nəticəsi olsun deyə, uroloq və ya nefroloqun rəyi alınmalıdır".

Şöbə müdiri Tədris Cərrahiyyə Klinikasında istənilən böyrək xəstəsinə tibbi xidmət göstərmək üçün hər cür şəraitin olduğunu diqqətə çatdırdı: "Diaqnostik müayinə üsulları təkmilləşdikcə, böyrək xəstələrinin diaqnostikasının keyfiyyəti də artır. Tibbi sığorta tətbiq olunandan bizə müraciət edənlərin sayı da çoxalıb. İnsanlar xırda problemlərini belə aydınlaşdırmaq üçün müayinə olunurlar. Bu, müsbət bir tendensiyadır. O mənada ki, ilkin mərhələdə erkən diaqnoz qoyulursa, xəstəliyi tam müalicə etmək mümkün olur. Ən çox bizə böyrəkdaşı, böyrək şişləri ilə bağlı müraciətlər edilir. Bu cür xəstəliklərin yaranmasına isə daha çox oturaq həyat tərzi, zərərli qidalanma, qan dövranı pozğunluğu, az maye qəbulu və s. səbəb olur.

Onu da qeyd edim ki, klinikamızda 10 ilə yaxındır Böyrək transplantasiyası şöbəsi fəaliyyət göstərir. Əməliyyatlar professor Nuru Bayramovun rəhbərliyi ilə uğurla həyata keçirilir".

**Qabil ABDULLAYEV**

# Mülki Müdafiə Günündə toplanış məşqi və tədbir keçirilib

**1 mart Mülki Müdafiə Günü ilə əlaqədar Azərbaycan Tibb Universitetində Mülki Müdafiə Qüvvələri ilə xəbərdarlıq və toplanış məşqi, həmçinin "Mülki müdafiə əhalinin təhlükəsizliyinin təminatıdır" mövzusunda tədbir keçirilib.**

Toplanış məşqində Nəsimi rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsinin baş zabiti mayor Elgiz Paniyev, Azərbaycan Tibb Universitetinin Mülki Müdafiə Qərargahının rəisi Ramiz Əliyev, MM qüvvələrinin komandirləri, manqa və dəstə üzvləri iştirak ediblər. Məşqlərin keçirilməsinin məqsədi xəbərdarlıq sisteminin vəziyyətinin yoxlanılması, həmçinin MM qüvvələrinin şəxsi heyətinə xəbərdarlıq və toplanış üzrə vərdişlərin aşılanmasından ibarət olub.

110 nəfərin iştirakı ilə keçirilən məşqdə MM qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi, tabel əmlakı təchizatı və qoyulmuş tapşırıqlar üzrə nəzəri biliklər yoxlanılıb. Məşqdən sonra nəticələr təhlil edilərək müvafiq göstərişlər verilib.

"Mülki müdafiə əhalinin təhlükəsizliyinin təminatıdır" mövzusunda tədbirdə isə Ümumdünya mülki müdafiə gününün yaranma tarixi, cəmiyyət və dövlət strukturları tərəfindən təbii və texnogen xarakterli fövqəladə halların xəbərdar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması, görülmüş işlər və qarşıda duran ümumi vəzifələrdən söz açılıb. Tədbirdə ATU-nun əməkdaşları, Mülki Müdafiə Qüvvələrinin komandirləri də daxil olmaqla ümumilikdə 300-ə yaxın şəxs iştirak edib.



# İqlim dəyişikliyi mövzusu bütün fakültələrdə tədris olunur



**İctimai sağlamlıq fənninin proqramına daxil edilmiş və metodik vəsaitdə öz əksini tapmış mühazirələr bir çox problemləri əhatə edir. Bu mühazirələrdən biri olan və proqrama yeni daxil edilmiş "İqlim dəyişikliyinin insan sağlamlığına təsiri" mühazirəsi aktuallıq baxımından xüsusi əhəmiyyət kəsb edir. İqlim dəyişikliyi müasir dövrün qlobal problemlərindən biridir. İnsanın yaşayış mühitinin onun sağlamlığına təsir edən mühüm amillərdən biri olması bu istiqamətdə dünya səhiyyəsinin qarşısında böyük vəzifələr qoyur.**

Metodik vəsaitdə iqlim dəyişikliyinin səbəbləri, nəticələri, onunla mübarizə tədbirləri barədə geniş məlumat verilib. Müxtəlif ölkələrin məlumatları əsasında bu problemin təhlilinə geniş yer ayrılıb, elmi əsaslandırılmış dəlillərlə ətraf mühit amillərinin, xüsusilə iqlim dəyişikliyinin sağlamlığa vurduğu ziyan və onun fəsadlarının qiymətləndirilməsi öz əksini tapıb. İnsan fəaliyyəti nəticəsində denaturasiya olunmuş mühitin biotik və abiotik amillərinin insan orqanizminə təsiri ilə əlaqədar olaraq ictimai sağlamlıq səviyyəsinin aşağı düşməsi qeyd edilməklə, sosial mühitin bu prosesdə aparıcı rolu bir daha vurğulanıb, təbii mühit amillərinin müəyyən sosial şəraitdə insana təsir etməsi və insanların ətraf mühitə uyğunlaşması prosesi xarakterizə olunaraq ətraf mühitin çirklənməsində bilavasitə insan amili də səbəb kimi təhlil edilib. Metodik vəsaitdə, həmçinin bu problemin aradan qaldırılmasında təkcə dövlətin rolunun kifayət etməməsi, insanların da bu mübarizədə önəmli rol oynamasının vacibliyi qeyd olunub, ÜST, Ümumdünya Meteorologiya Konqresi və digər səhiyyə tərəfdaşları ilə birlikdə iqlim, ətraf mühit və sağlamlıq üçün inteqrasiya olunmuş xidmətləri inkişaf etdirmək məqsədilə on illik strategiya və uğur nümunələri, eləcə də COP29 tədbiri barədə məlumat verilib.

Azərbaycan Tibb Universitetində bütün ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş "İqlim dəyişikliyinin insan sağlamlığına təsiri" adlı metodik vəsaitin tələbələr tərəfindən bu məsələnin mənimsənilməsinə kömək edəcəyi və bu sahədə onların biliklərinin artırılmasına böyük töhfə verəcəyi şübhə doğurmur.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası tərəfindən 2024-2025-ci tədris ilindən başlayaraq, bütün fakültələrdə (Müalicə-profilaktika, Stomatologiya, İctimai səhiyyə, Əczaçılıq, Hərbi tibb) tədris olunan "İctimai sağlamlıq" fənninin mövzu-təqvim planında "İqlim dəyişikliyinin insan sağlamlığına təsiri" mövzusu 1 mühazirə (2 saat) və 2 seminar-məşğələdə (4 saat) əhatə olunur. Kitabın müəllifləri kafedranın müdiri, tibb elmləri doktoru, dosent Yaqut Hacıyeva və tibb elmləri namizədi, dosent Nərminə Göyüşovadır.

# Əməkdaşımızın tezisi beynəlxalq konqresdə dəyərləndirilib

**Şüa diaqnostikası və terapiyası kafedrasının əməkdaşı Ruqiyyə Əhmədli fevralın 26-dan martın 2-dək Avstriyanın Vyana şəhərində keçirilən Avropa Radiologiya Cəmiyyətinin "European Congress of Radiology 2025" toplantısında iştirak edib.**



R.Əhmədlinin "İntraventrikulyar törəmələrin diferensial diaqnostikasında diffuziya ağırlıqlı/ADC maqnit rezonans görüntülənmənin imkanlarının tədqiqi" adlı tezisi konqres çərçivəsində 10 minə yaxın göndərilmiş tezislər arasından seçilərək EPOS (Electronic Presentation Online System) olaraq təqdim edilib.

Elmi-tədqiqatın məqsədi intraventrikulyar törəmələrin diferensial diaqnostikasında maqnit rezonans müayinədə diffuziya ağırlıqlı görüntülənmənin (DWI) və görünən diffuziya əmsalının (ADC) əhəmiyyətinin dəqiqləşdirilməsidir.

Aparılan tədqiqat retrospektiv olub, diffuziya ağırlıqlı maqnit rezonans görüntüləmə törəmə toxumalarının istilik enerjisindən və hüceyrədaxili mikrostrukturdan asılı olaraq su protonlarının mikroskopik hərəkəti barədə əlavə məlumat verib. Törəmələrdə su diffuziyasının miqdarındakı dəyişikliklərin ADC parametrlərinə təsir etdiyi və xüsusilə, hüceyrə sıxlığı, hüceyrədaxili makromolekulyar tərkib və ekstrasellular boşluqların rolu ADC dəyərlərinin fərqlənməsinə səbəb olub. Bu da törəmələrin ayırd edilməsində DWI və ADC nəticələrinin əhəmiyyətli seçim ola biləcəyini vurğulayır.

Qeyd edək ki, Avropa Radiologiya Cəmiyyətinin 1967-ci ildən bəri təşkil etdiyi bu konqres dünya üzrə ən nüfuzlu və ən böyük radioloji tədbirlərdən biri hesab olunur.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin verdiyi məlumata görə, podaqra xəstəliyinin müayinə və müalicəsi üçün lazım olan laborator analizlər, rentgen, ultrasəs müayinə, fizioterapiya, tibbi göstərişə əsasən stasionar müalicə icbari tibbi sığorta hesabına qarşılanır. Bu barədə və sözügedən xəstəliyin xüsusiyyətləri ilə bağlı ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyevlə söhbətləşdik.**

# Podaqranın müayinə və müalicəsi icbari tibbi sığorta hesabına aparılır

## ATU-nun kafedra müdiri dözülməz ağrı ilə müşayiət olunan bu xəstəliyin müalicəsindən danışır

Onun sözlərinə görə, podaqra (yunanca podos - ayaqlara tələ, yaxud qurban) – orqanizmdə purin mübadiləsinin pozulması nəticəsində sidik turşusunun miqdarının artması zamanı dövri olaraq kəskin artrit şəklində, xüsusilə ayaq baş barmağında qızartı, şişkinlik və kəskin ağrı ilə özünü büruzə verir: "Podaqra bir xəstəlik vahidi kimi yalnız keçmiş SSRİ-də və Bolqarıstanın tibb ədəbiyyatlarında göstərilirdi. Qardaş Türkiyədə və digər Avropa ölkələrində bu xəstəlik "Qut" (latınca qutta - damcı, damla) adlanır. Bu termindən əlavə, "arthritis urica" ifadəsi də işlədilir ki, bu da əsasən xəstəliyin oynaq əlamətləri ilə əlaqədardır. Xəstəlik çox qədim zamanlardan, hətta Hippokrat dövründən məlumdur. O, xəstəlik haqqında çox məlumatlı idi və deyirdi ki, gənc kişilər qadınları tanıyana qədər, qadınlar isə menopauzaya qədər podaqra ilə xəstələnmirlər. Orta əsrlərdə xəstəliyə zadəganlər, padşahlar və aristokratlar, bir sözlə, ətli-yağlı qidalar, spirtli içki məclislərində günlərini çox keçirənlər arasında daha çox rast gəlinirdi. Kişilər arasında 1000 nəfərə 5-28, qadınlar arasında isə 1-6 arasında xəstəyə rast gəlinir. Ümumiyyətlə, bu xəstəlik kişilərdə qadınlara nisbətən 10 dəfə çoxdur. Xəstəlik kişilərdə ən çox 40-50 yaşda, qadınlarda isə postmenopauza dövründə, yəni 55-60 yaşlarda özünü daha çox göstərir".

Həkim bildirib ki, xəstəliyin səbəbi purin mübadiləsinin pozulması olsa da, burada insanın qidalanmasının da böyük rolu var: "Bu səbəblər arasında pivə və alkoqollu içkilərə həddindən artıq aludəlik, bir sıra dərman maddələri (aspirin, sidikqovucular və s.), müntəzəm olaraq həddindən artıq qidalanma, cərrahi əməliyyatlar və orqan köçürülməsi, qurğuşunla zəhərlənmə, diabet, psoriaz (pullu dəmrov), hipertoniya, tez-tez sauna və hamama getmək kimi amillərin də rolu var. Xəstəliyin ilk başlanğıc əlaməti, əsasən ayaqda baş barmaq falanqasında qızartı, şişkinlik və şiddətli ağrıdır. Ağrı tutmaları spirtli içki, qızardılmış və acı qida qəbulundan sonra daha çox baş verir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, bir çox insanlarda ayaq baş barmağında əyilmə və qabarıqlıq olur ki, bəzən onu podaqra ilə qarışdırırlar. Ona halluks deyilir və əksər hallarda dar, ayağı sıxan ayaqqabı geyindikdə ağrılar artır. Podaqra xəstəliyinin diaqnozunun dəqiqləşdirilməsi üçün qanda sidik turşusunu müayinə etmək lazımdır. Bu müayinə, qeyd edildiyi kimi, İcbari Tibbi Sığorta ilə TƏBİB-in nəzdində olan bütün tibb müəssisələrində aparılır və onun müalicəsi ilə revmatoloqlar məşğul olur".




Podaqranın müalicəsindən danışan həkim vurğulayıb ki, xəstəliyin sağalmasında tibbi amillərlə yanaşı, pəhriz də çox önəmlidir: "Belə ki, qidalanma zamanı yağlı balıq, ət və yarımfabrikatlar, bütün növlərdə spirtli içkilər, konservlər, ət bulyonu, paxlalı bitkilər (lobya, noxud, soya), göbələk, şokolad, kakao, tünd çay, qəhvə, badımcan, turp, ispanaq, hisə verilmiş kolbasa və balıq məmulatları, moruq, yağlı-kremli qənnadı məmulatları tam məhdudlaşdırılmalıdır. Gündə 1 ədəd yumurta, sitrus bitkiləri, moruqdan başqa bütün giləmeyvələr, yaşıl alma, qoz, quru meyvələr, bal, povidla, marmelad, xiyar, yaşıl çay, müxtəlif növ yarmalar və çoxlu xiyar yemək məsləhətdir. Xiyarın tərkibi əsasən sudan ibarətdir, həm də sidikqovucu təsirə malikdir. Podaqranın müalicəsində mineral suların qəbulu çox faydalıdır. Sutkada 2 litrə qədər (hər kiloqram çəkiyə 30 ml) maye qəbul olunmalıdır. Respublikamızdakı müalicəvi mineral sulardan - İstisu, Sirab, Badamlı, Qalaaltı suyundan istifadə tövsiyə olunur. Bunların içərisində Qalaaltı suyu çox faydalıdır, ancaq bu su mütləq mənbədə içilməlidir, yəni onu qablaşdırıb içmək məsləhət deyil. Mineral sular 180-200 ml miqdarda, gün ərzində 5-6 dəfə, 22-28 gün qəbul olunmalıdır".

Mütəxəssis qeyd edib ki, xəstəliyin kəskin dövründə ultrayüksək tezlikli terapiya (UYT), eritem dozada ultrabənövşəyi şüalar, fonoferez, kəskin dövr keçdikdən sonra isə palçıq və parafin yaxması, yod-brom, hidrogen-sulfid və radon vannaları, elektroforez kursları qəbul oluna bilər.

**M.ƏLƏKBƏRLİ**

# Yenidoğulmuşlarda xəstəliklərin erkən aşkarlanması vacibdir

**Tədris Cərrahiyyə Klinikasında Klinik-diaqnostik laboratoriya və Rezidentura və magistratura şöbələrinin birgə təşkil etdiyi növbəti seminarın mövzusu "Yenidoğulmuşların genetik metabolik xəstəliklərinin laborator diaqnostikası" olub. Tədbirdə müxtəlif ixtisas üzrə təhsil alan rezidentlər iştirak ediblər.**



Seminara moderatorluq edən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov tibbi təhsilin fasiləsiz inkişafının vacibliyini qeyd edərək, bu seminarların rezidentlərin nəzəri və praktiki biliklərinin artırılmasında mühüm rol oynadığını vurğulayıb. O bildirib ki, genetik metabolik xəstəliklərə neonatal dövrdə daha çox rast gəlinir və onların vaxtında diaqnostikası uşaqların həyat keyfiyyətinin və sağlamlığının qorunmasında əsas faktorlardan biridir. N.Xəlilov, xüsusilə qohum evlilikləri fonunda erkən diaqnostikanın mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Sonra Klinik-diaqnostik laboratoriya şöbəsinin müdiri Leyla Həşimova çıxışında bildirib ki, bu mövzunun seçilməsi təsadüfi deyil və yenidoğulmuşlarda rast gəlinən genetik metabolik xəstəliklərin laborator diaqnostikasında müasir yanaşmaların tətbiqi həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə mühüm töhfə verir. O, müxtəlif ixtisas sahiblərinin bu kimi tədbirlərdə bir araya gəlməsinin klinisistlər və laborator mütəxəssislər arasında qarşılıqlı əməkdaşlığın möhkəmlənməsinə imkan yaratdığını söyləyib.

Seminarda geniş təqdimatla çıxış edən II kurs rezident Gülşən Məmmədova yenidoğulmuşlarda rast gəlinən genetik metabolik xəstəliklərin növləri, diaqnostika üsulları və müalicə protokolları haqqında ətraflı məlumat verib. O, xəstəliklərin laborator analizlər vasitəsilə aşkar edilməsinin vacibliyini və dəqiq diaqnozun qoyulmasında müasir metodların tətbiqini ətraflı izah edib. Məruzəçi vurğulayıb ki, metabolik xəstəliklərin erkən aşkarlanması gələcəkdə yaranacaq ağırlaşmaların qarşısının alınmasında mühüm rol oynayır.

Seminarın sonunda mövzu ətrafında müzakirələr aparılıb. Rezidentlər genetik metabolik xəstəliklərin diaqnostikası ilə bağlı əlavə məlumatlar əldə edib.

# Azərbaycanda tibbi menecment necə işləyir?

## Dosent Nigar Ələkbərova: Rəqabət artdıqca, klinikaların marketinq strategiyasına daha çox diqqət ayırması başadüşüləndir

**Azərbaycanda tibb müəssisələrinin müasir idarəetmə sistemi ciddi dəyişikliklərə məruz qalmaqdadır. Bu gün tibbi menecmentin qarşısında klinikaların işini təşkil etməkdən tutmuş, xidmət keyfiyyətinə nəzarət və rəqəmsal texnologiyaların tətbiqinə kimi geniş spektrə malik məsələlər dayanır. Bu sistemin təkmilləşdirilməsi üçün hansı zəruri addımlar atılması ilə bağlı ATU-nun İctimai fənlər kafedrasının dosenti Nigar Ələkbərovanın fikirlərini təqdim edirik.**

**- Əvvəlcə bilmək istərdik ki, tibb müəssisələrinin uğurlu fəaliyyətini təmin etmək üçün idarəetmə strukturunun tərkibi necə olmalıdır?**

- İstər dövlət xəstəxanası olsun, istərsə də özəl klinika - hər bir səhiyyə müəssisəsinin dəqiq idarəetmə strukturu var. Bura klinikanın direktoru (baş həkim), tibb direktoru, inzibati heyət, sığorta və mühasibatlıq şöbələri aiddir. Baş həkim qurumun ümumi strategiyası, personalın işi, maddi dayanıqlıq və dövlət orqanları ilə əlaqələrə cavabdehdir. Tibbi direktor isə müalicənin keyfiyyətinə, həkimlərin işinə və tibbi standartların yerinə yetirilməsinə nəzarət edir.

İnzibati heyətə maliyyə, marketinq, İT və kadrlar üzrə menecerlər daxildir ki, onlar klinikanın fasiləsiz işini təmin etməlidirlər. Sığorta və mühasibatlıq bölmələri isə, bəlli olduğu kimi, sığorta şirkətləri ilə əlaqələri nizamlayır, gəlir və xərclərin uçotunu aparır.

Qeyd edim ki, dövlət xəstəxanalarında idarəetmə, maliyyələşmə və resursların bölüşdürülməsi Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) tərəfindən həyata keçirilir.

İstənilən halda tibbi menecmentin ən önəmli aspektlərindən biri işçi heyətin effektiv idarə edilməsi ilə bağlıdır. Bu zaman ixtisas səviyyəsinin davamlı artırılması üçün həkimlər təlimlərə göndərilir, beynəlxalq konfranslarda iştirakları təmin edilir. Xidmət səviyyəsinin qiymətləndirilməsi üçün pasiyentlərdən klinika haqqında rəy sorğusunda iştirak etmək xahiş olunur. Daxili yoxlamalar və akkreditasiyalar isə tibbi standartlara nəzarət olunmasına kömək edir.

**- Hazırda ölkəmizdə tibbi xidmətlərin göstərilməsində sığorta sistemi böyük əhəmiyyət daşıyır. Xəstəxana və klinikaların maliyyələşməsində sığorta hansı rol oynayır?**

- Dövlət xəstəxanaları büdcədən maliyyələşsə də, gəlirlərin bir hissəsi icbari sığorta hesabına formalaşır. İTSDA vasitəsilə dövlət sığortalanmış vətəndaşlar üçün əsas tibbi xidmətlərin xərcini ödəyir, pasiyentlər isə yalnız pulsuz xidmətlər siyahısına daxil olmayan müəyyən müalicə növləri üçün əlavə ödəniş edirlər. Özəl klinikalar isə bir neçə mənbədən maliyyələşir. Bunlar arasında daha çox gəlir mənbəyini pasiyentlərin birbaşa ödəmələri təşkil edir. Digər mənbələr isə könüllü tibbi sığorta (fərdi sığortası olan pasiyentlər sığorta zərfinə daxil olan xidmətlərdən yararlanır) və dövlət sazişləridir (bəzi hallarda özəl klinikalar dövlət proqramları üzrə müəyyən sifarişləri yerinə yetirirlər).

**- Klinikaların işinin optimallaşdırılması, daha effektiv fəaliyyət göstərə bilməsi üçün hansı əlavə tədbirlər həyata keçirilə bilər?**

- Azərbaycanda müasir tibbi idarəetmə klinikaların işinin effektivliyinin artırılmasına yönəlib. Bu məqsədlə aşağıdakı tədbirlər görülür:

• Elektron tibbi kartların tətbiqi – kağız işi azalır, diaqnostika və müalicə işi sürətlənir.

• Pasiyent axınının idarəedilməsi sistemi – elektron növbələr və onlayn qeydiyyatın tətbiqi gözləmə müddətini azaldır.

• Telesəhiyyə - özəl sektorda aktiv şəkildə inkişaf edən bu xidmət növü onlayn müayinə aparılmasına imkan yaradır.

• CRM sistemlər – pasiyentlərin uçotunun aparılması, həkimin qəbulu ilə bağlı xatırlatma-bildirişlərin avtomatlaşdırılması, müraciətlətin analizinin aparılmasına kömək edir.



**- Məlumdur ki, rəqabətin çox olduğu sahələrdə reklamsız keçinmək mümkün deyil. Tibb sahəsində uğurlu idarəetməyə nail olunmasında marketinqin rolu nədən ibarətdir?**

- Özəl sektorda rəqabət artdığına görə, fərdi klinikaların marketinq strategiyasına daha çox diqqət ayırması başadüşüləndir. Bu zaman klinikanın tanıdılması üçün aşağıdakı alətlərdən istifadə olunur: sosial şəbəkələr və internetdə reklam, pasiyentlərin rəyləri və loyallıq proqramları.

Birinci istiqamətə əsasən facebook, instagram, youtube və google ads platformaları üzərindən reklam kampaniyaların təşkili aiddir. Bu zaman ikinci alətdən də çox istifadə olunur. Belə ki, ictimai nüfuza önəm verən klinikalar öz pasiyentlərindən onlar haqqında müsbət rəylər yazmağı xahiş edirlər. Nəhayət, özəl klinikalar daimi müştəriləri (pasiyentlər) üçün müəyyən endirimlər tətbiq edir, ailələr üçün xüsusi tibbi xidmət paketləri hazırlayırlar.

Bundan əlavə, özəl klinikalar müştəri xidmət səviyyəsini, beləliklə də məmnuniyyəti yüksəltməyə, klinikada daha rahat şərtlər yaratmağa çalışırlar. Komfortlu palatalar, fərdi münasibət, daha az gözləmə müddəti pasiyentin də razı qalmasına səbəb olur.

Yekunda onu deyə bilərəm ki, Azərbaycanda tibbi menecment xüsusilə özəl sektorda inkişaf etməkdədir. Burada əsas istiqamətlər rəqəmsal texnologiyaların tətbiqi, tibbi xidmət keyfiyyətinin yüksəldilməsi, sığorta sisteminin inkişafı və marketinq strategiyalarının gücləndirilməsi ilə əlaqəlidir. Bu dəyişikliklərin hamısı səhiyyənin effektivliyinin artırılması və daha çox əlçatan olmasına yönəlib ki, bu da rəqabət mühiti yaratmaqla təkcə ölkə daxilində deyil, xaricdən də pasiyentlərin cəlb olunmasına imkan verir.



# Gələcəyin stomatoloqları mulyaj üzərində implant qoyub

***Ağız və üz-çənə cərrahiyyəsi kafedrasında Stomatologiya fakültəsinin V kurs tələbələri üçün mulyaj üzərində implantın qoyulması üzrə master-klas keçirilib.***

Fakültə dekanı, dosent Elmira Əliyeva tələbələrə təcrübələrində uğurlar arzulayıb. Qeyd edib ki, onların universitetdə əldə etdikləri bilik və bacarıqlar sonradan praktikada gərəkli olur.

Kafedranın dosenti Fərman Həsənov belə master-klasların böyük əhəmiyyətə malik olduğunu bildirib. Onun sözlərinə görə, dişlərin implantasiyası, implantların qoyulma taktikası, işlənməsi və digər texnikalar artıq bir neçə ildir ki, proqrama əsasən tədris olunur: "Belə master-klaslar sayəsində tələbələrimiz oxuduqlarını praktikada tətbiq edirlər. Onlar implant qoymaq üçün ağız boşluğunda ölçüləri necə əldə etməyi, implantları hazırlıq vəziyyətinə necə gətirməyi öyrənirlər".

Dosent F.Həsənov tələbələrin implant mövzusunu yüksək səviyyədə mənimsəmələri üçün hər cür şərait yaratdığına və materiallarla təmin etdiyinə görə "Kaspi Dent" firmasının rəhbərliyinə təşəkkür edib.

# Əməkdaşlar üçün EBSCO resursları haqqında vebinar keçirilib

**Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşəbbüsü ilə universitetimizin əməkdaşları üçün EBSCO resurslarının işləmə qaydası haqqında vebinar keçirilib. "Azərbaycan Tibb Universitetinin elmi-tədqiqat, praktiki və tədris fəaliyyətində tammətnli elektron tibbi-elmi resurslara çıxış və istifadə" mövzusunda ətraflı məlumat verilib.**

EBSCO-nun təmsilçisi İrina Serjan tərəfindən vebinar iştirakçılarına tibbi jurnalların toplusu MedLine Ultimate, tibbi şəkillərin toplusu SMART və DynaMed tibbi məlumat bazası haqqında geniş təqdim olunub, həmçinin portallarda qeydiyyatdan keçmə qaydası, distant istifadə imkanı, istifadə qaydaları, resursların üstünlükləri izah edilib.

Qeyd edək ki, MedLine Ultimate resursu tədqiqatçılara, doktorant və dissertantlara 2500-dən artıq tibbi jurnallardan açıq istifadə imkanı yaradır. DynaMed resursu isə həkimlərə xəstələrin diaqnostika və müalicəsini sübuta əsaslanmış tibbi prinsiplərə əsaslanaraq aparmaq imkanı verir. Smart İmage resursu tədris zamanı müxtəlif patologiyalara aid şəkillər və animasiya toplusunun köməyi ilə mövzunu auditoriyaya aydın şəkildə çatdırmağa kömək edir.

Vebinar iştirakçıları sertifikatla təltif olunublar. Tədbirin sonunda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

# Mədəkiçiltmə əməliyyatı keçirmiş pasiyentlər oruc tutmamalıdır

**ATU-nun I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, t.ü.f.d. Taryel Ömərov Ramazan ayı ilə bağlı açıqlama verib. Bildirib ki, mədəkiçiltmə əməliyyatı dediyimiz bariatrik-metabolik əməliyyatlar keçirmiş pasiyentlərə ilk bir il ərzində oruc tutmaq tövsiyə edilmir.**

Onun sözlərinə görə, son beş ildə bu barədə daimi maarifləndirmə tədbirləri aparılsa da, bu sual yenə də öz aktuallığını itirməyib: "2020-ci ildə dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların ciddi protokolu əsasında bu məsələ geniş şəkildə araşdırıldı və rəylər toplanaraq konsensus məqaləsi dərc olundu. Bu məqalənin hazırlanması üçün 32 İslam dövlətindən 61 elm adamının apardığı böyük bir araşdırmada ölkəmizi mən təmsil edirdim. Dərc olunan məqalədə 45 sualdan ibarət olan səsvermənin 40-ı ilə təsdiq olundu ki, əməliyyatdan sonra pasiyentə bir il ərzində oruc tutmaq tövsiyə edilmir. Bir ildən sonra isə pasiyent mütləq şəkildə öz həkiminin, o cümlədən nutrisioloq, diyetoloq və endokrinoloqun ortaq qərarı ilə oruc tuta bilər".

T.Ömərov qeyd edib ki, 2023-cü ildə növbəti dəfə 11 ölkədən mütəxəssislərin iştirakı ilə konsensus araşdırma-məqaləsi hazırlanıb. Burada ötən dövrdə müvafiq əməliyyat keçirmiş, amma tövsiyələrə qulaq asmayaraq oruc tutmuş şəxslərə yer verilib. Belə ki, əməliyyatdan sonrakı ilk bir il ərzində oruc tutmuş 132 nəfərdə müxtəlif fəsadlar, şikayətlər müşahidə olunub. Bura qastrit ağrıları, mədə turşuluğunun yüksəlməsi və s. daxildir: "Beləliklə, bir daha təsdiq olundu ki, ilkin qərarımız doğru olub. Buna əməl olunmadıqda, mədə-bağırsaq sistemində problemlər baş qaldıracaq".

Açıqlamasında bu araşdırmaları bir daha nəzərə çatdıran mütəxəssis, son bir ildə bariatrik-metabolik əməliyyat keçirmiş pasiyentlərə oruc tutmağı məsləhət görüb.

# Universitetimiz Birləşmiş Ərəb Əmirliklərində təmsil olunub

**Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin həkim-oftalmoloqu Gülnar Əliyeva Birləşmiş Ərəb Əmirlikləri Oftalmoloji Cəmiyyətinin Abu-Dabi şəhərində keçirilən 22-ci toplantısına qatılıb.**




G.Əliyeva toplantıda dəvətli məruzəçi kimi iştirak edərək, nadir rast gəlinən göz xəstəlikləri barədə məruzə təqdim edib. Burada 8000 xəstə müayinəsi zamanı 16 xəstədə aşkarlanan nadir göz xəstəliklərinə dair məlumatlar yer alıb.

G.Əliyevanın sözlərinə görə, nadir rast gəlinən göz xəstəlikləri vaxtında aşkarlandıqda, həyati təhlükə yarada bilən ağırlaşmaların qarşısı alınır.

Qeyd edək ki, toplantıda dünyanın 50 ölkəsindən 2000-dən çox oftalmoloq iştirak edib. Eləcə də 500-dən çox oftalmoloq elmi müzakirələrə qatılıb.

# Azərbaycan tibb elminə ağır itki üz verib



**Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və terminologiya kafedrasının məsləhətçi-professoru Rafiq Əsgərov vəfat edib.**

Rafiq Əşrəf oğlu Əsgərov 1933-cü il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olub və 6 saylı orta məktəbdə təhsil alıb. 1951-ci ildə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. Tələbəlik illərindən Normal anatomiya kafedrasında laborant və baş laborant vəzifələrində çalışıb.

1957-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirərək, Normal anatomiya kafedrasında aspiranturaya daxil olan R.Əsgərov bundan sonra assistent, dosent, professor vəzifələrinə qədər şərəfli yol keçib. O, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə edərək, morfologiya elmində öz sözünü inamla söyləyib. Onun elmi fəaliyyətinin istiqamətini nəfəs borusu və baş bronxların, eləcə də ağciyərlərin innervasiyası ilə əlaqədar azan sinirin nəqledici aparatının morfo-funksional, yaş və fərdi xüsusiyyətlərinin, mielogenez və mieloarxitektonikasının tədqiqi təşkil edib. Öz zəngin elmi-pedaqoji fəaliyyəti dövründə professor R.Əsgərov 200-dən çox elmi əsər, monoqrafiya, dərslik və dərs vəsaitləri, metodiki göstərişlər çap etdirib. Gənclik illərindən milli anatomiya məktəbinin banisi, görkəmli alim K.Ə.Balakişiyevin tövsiyəsi ilə çalışmağa başladığı Anatomiya muzeyi R.Əsgərovun əsərlərində ayrıca bir xətt təşkil edir. Muzey haqqında kitablar, eləcə də onlarla elmi-kütləvi məqalələr anatomiyanı gənclər üçün maraqlı etməyə yönəlmişdir.

Professor R.Əsgərov dəfələrlə Azərbaycan elmini müxtəlif mötəbər tədbirlərdə - Ümumittifaq Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin VIII-XI qurultay və simpoziumlarında, Cənubi Qafqaz ölkələri morfoloqlarının I-V konfranslarında və digər elmi forumlarda yüksək səviyyədə təmsil edib. Onun maraqlı mühazirələri, zəngin elmi təcrübəsi bir neçə nəsil Azərbaycan həkimlərinin yetişməsində ümdə rol oynayıb.

1969-cu ildə Azərbaycan Tibb İnstitutunda yeni yaradılan Həzırlıq şöbəsinin müdiri, 1985-90-cı illərdə Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsində çalışan R.Əsgərov 1988-93-cü illərdə Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru vəzifəsinə seçilib. 1995-ci ildən kafedranın professoru, 2017-ci ildən isə məsləhətçi-professoru vəzifəsində uğurla çalışan qocaman alim 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəhbəri olub. Rafiq müəllim həm də uzun illər ATU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya şurası sədrinin müavini vəzifəsini tutub.

Çalışdığı bütün vəzifələrdə yüksək məsuliyyət və peşəkarlıq göstərən alim 2008-16-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olub. Əməkdar elm xadimi, professor R.Əsgərovun fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. O, 2000-ci ildə - ATU-nun 70 illik yubileyi ərəfəsində "Tərəqqi" medalına, 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Görkəmli alim "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalı ilə də təltif olunub.

Böyük alim, gözəl insan Rafiq Əsgərovun əziz xatirəsi həmkarları və tələbələrinin yaddaşında əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

*ATU-nun rektorluğu və İnsan anatomiyası və terminologiya kafedrasının əməkdaşları*


AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:**

**Kafedranın müdiri:**
- Farmakologiya kafedrası

**Kafedraların professorları:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)

**Kafedraların assistentləri:**
- Tibbi və bioloji fizika kafedrası - 1 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
-III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 2 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**


# Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı yarışlar keçirilib

**ATU-nun Tədris İdman Kompleksində Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon gənclər və idman sektoru və universitetimizin "Təbib" idman klubunun birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında 5 mart - Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş dama (oğlanlar və qızlar) və 3x3 basketbol (oğlanlar) üzrə yarışlar keçirilib.**

Dama yarışları qarışıq formada məşqçi-müəllim Kübra Bacaraninin rəhbərliyi ilə təşkil olunub. Turnirdə 22 oğlan və 6 qız olmaqla, ümumilikdə 28 tələbə iştirak edib. 7 turdan ibarət mübarizənin nəticələrinə görə, oğlanlar arasında Zaur Balayev I, Cəfər Məmmədzadə II, Elşən Yunisov III, qızlar arasında Aynur Alməmmədova I, Fatimə Hüseynova II, Jalə Məmmədli III yerə layiq görülüb.

3x3 basketbol yarışlarında isə dörd ali təhsil müəssisəsindən 6 komanda, ümumilikdə 24 tələbə mübarizə aparıb. Məşqçi-müəllim Sevinc İsayevanın rəhbərliyi ilə keçən gərgin oyunlardan sonra qaliblər müəyyənləşib. Rəqiblərinə qalib gələn Bakı Dövlət Universiteti I, Azərbaycan Tibb Universiteti II, Azərbaycan Dillər Universiteti III, Bakı Slavyan Universiteti isə IV yeri tutub.




Yarışların bağlanış mərasimində Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndələri Rauf İsgəndərov və Emin Hüseynov, Bakı şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sirac Axundov və ATU "Təbib" idman klubunun sədri Qələndər Aslanov qaliblər kubok, medal və diplomlarla təltif edib, onlara növbəti yarışlarda uğurlar arzulayıblar. Tədbir xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.

# Maraqlı rəsm sərgisi təşkil olunub

Tələbə Gənclər Təşkilatının nəzdindəki Rəsm Klubu, Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə əməkdaşlıq çərçivəsində "Məşhurların izindən" adlı rəsm sərgisi təşkil edib.

16 tələbənin iştirak etdiyi sərgidə 3 tələbə qalib olub. Qeyd edək ki, maraqlı mövzuya həsr edilmiş sərgi və buna bənzər digər tədbirlər tibb tələbələrinin şəxsi inkişafına böyük töhfə verir.





# Deyirlər ki...

**Xalqımızın minilliklərə dayanan tarixinə diqqət yetirdikdə, ailə, məişət, din, bayramlar, qidalanma, sağlamlıq və s. ilə bağlı çoxsaylı aforizmlərə rast gəlirik. Bəs, zaman və həyatın sınağından çıxmış, adət-ənənəyə çevrilmiş bu inanclar elmi cəhətdən necə yozulur? Hamısına əməl etməliyikmi, yoxsa yanlış olanları da var? Qoy bu suala mütəxəssislər cavab versin.**

**Qəzetimizdə yeni - "Deyirlər ki..." rubrikası davam edir. Burada siz əhali arasında geniş yayılmış inanclara professor-müəllimlərimizin, həkimlərimizin münasibəti ilə tanış olacaqsınız.**

*Deyirlər: "Ayağını isti saxla, başını sərin".*

**Cavab verir: ATU-nun III Daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanov:**

- Sualınıza əlavə olaraq qeyd edim ki, el arasında belə bir deyim də var, adam ayağından üşüyər. Məsələyə tibbi baxımdan yanaşsaq, bilirik ki, həmişə insanın ayaq temperaturu bədənin digər üzvlərinin temperaturundan aşağı olur. Məhz ona görə də podaqra kimi xəstəlik əlin baş barmağında deyil, ayağın baş barmağında olur. Yəni ayaqda qan dövranı bədənin digər orqanlarına nisbətən zəifdir. O baxımdan ayağı isti saxlamaq lazımdır ki, qan dövranı yaxşı olsun. Çünki ayaq üşüdükcə yuxarı tənəffüs, boğaz yolları xəstəlikləri, məsələn, angina, tonzillit, faringit, haymorit, sinusit və s. üçün sanki şərait yaranır. O cümlədən revmatik xəstəliklər, revmatik qızdırma, böyrəklərdə spastik vəziyyətin yaranması da ayaqların soyuq saxlanması nəticəsində baş verir.

Amma orqanizmi möhkəmləndirməyin bir yolu da var ki, ayaqları soyuq suya alışdırmaqdan keçir. Avropa ölkələrində uşaqların ayağını soyuq suya qoyur, buna alışdırırlar. Bunu tədricən, yaydan qışa doğru tədricən edirlər. Buna ona görə belə edirlər ki, soyuq mühitə düşən zaman qan dövranı tez bərpa oluna bilsin.

Deyimin ikinci hissəsini təşkil edən "başını sərin saxla" isə o demək deyil ki, şaxtalı havada başıaçıq gəzməli, soyuq su ilə başını yumalısan. Bu ifadə başqa məna kəsb edir. Adicə, isti bir yerdə oturanda adamı yuxu basır, baş dumanlanır, düşünmək, təhlil etmək qabiliyyəti zəifləyir. Ona görə başı sərin saxlamaq lazımdır ki, yaxşı işləsin, zamanında doğru və düzgün qərarlar verə bilsin.


**Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə**

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**


**Allah rəhmət eləsin!**

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Firəngiz Quliyevaya qardaşı

**Rövşən Quliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Səbinə Quliyevaya qardaşı

**Qulam Bağırovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0005
Sayı 800